*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 239-245*

https://doi.org/10.62837/2025.2.239

**ELMƏDDİN MƏHƏMMƏD OĞLU QULİYEV**
https://orcid.org/
0009-0003-4060-452X
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı
el-84@list.ru

# 1918-1920-Cİ İLLƏR MƏTBUATINDA 31 MART SOYQIRİMİNİN BƏDİİ-PUBLİSİSTİK İNİKASI

**Xülasə**

XX yüzil müharibələr, inqilablar, üsyanlar, çevrilişlər, təbəddülatlar əsridir. İctimai, siyasi, hərbi, sosial fırtınaların zəncirvari dalğaları Azərbaycandan yan ötməmişdir. Həm 1905-1906-cı illər, həm də, 1918-1920-ci illər hadisələri ölkəmizi, xalqımızı qırğınlar, faciələr, qətliamlar, soyqırımlar burulğanının episentrinə sürükləmişdir. Erməni-daşnak və bolşevik hərbi qüvvələri 1918-ci il 18 mart (yeni təqvimlə 31 mart) tarixində Bakı, Şamaxı, Quba şəhərlərində, eləcə də ölkənin digər regionlarında azərbaycanlı (müsəlman) əhaliyə qarşı amansız qətliama, qəddarlıq və vəhşiliklə həyata keçirilən, uzaq niyyətlərə hədəflənən soyqırım aksiyasına start vermişlər. Silahsız, mülki insanlara qarşı törədilən ağılasığmaz vəhşiliklərin baş verməsində, vüsət almasında dövrün bədnam qurumu olan "26 Bakı komissarı" və onun rəhbəri Stepan Şaumyan mühüm rol oynamışdır. Tədqiqatçı-alim Vilayət Quluyev arxiv sənədlərinə əsaslanaraq həmin faciəli günlərdə Bakıda qanlı hadisələri müşahidə edən Kulner soyadlı bir almanın xatirəsinə istinad edərək yazırdı: "*Ermənilər əsasən müsəlmanlarla məskun olan məhəllələrə soxularaq rastlarına çıxan hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edir, evləri yandırır, uşaqları yanan evlərin içərisinə atır, onların diri-diri yanmalarına tamaşa edirlər. Üç-dörd günlük südəmər körpələri süngülərin ucuna taxırdılar. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 müsəlman cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər*." (4, 21-22).

Xarici ölkə vətəndaşının Bakıda gördükləri vəhşiliklər azərbaycanlılara qarşı erməni qəddarlığının, barbarlığının tükürpədici kiçik bir mənzərəsidir.

**Açar sözlər: cümhuriyyət, 31 mart soyqırımı, Zaqafqaziya hökuməti, Bakı, mətbuat.**

**ELMƏDDİN MƏHƏMMƏD OĞLU QULİYEV**

**SUMMARY**

## ARTISTIC AND JOURNALISTIC REFLECTION OF THE MARCH 31 GENOCIDE IN THE PRESS OF 1918-1920

The 20th century is a century of wars, revolutions, uprisings, coups, and changes. The chain waves of social, political, military, and social storms did not bypass Azerbaijan. The events of both 1905-1906 and 1918-1920 dragged our country and our people into the epicenter of a whirlpool of massacres, tragedies, massacres, and genocides. On March 18, 1918 (March 31 according to the new calendar), the Armenian-Dashnak and Bolshevik military forces launched a ruthless massacre, cruelty, and barbarity against the Azerbaijani (Muslim) population in the cities of Baku, Shamakhi, and Guba, as well as in other regions of the country, and launched a genocidal campaign aimed at far-fetched intentions. The notorious organization of the time, the “26 Baku Commissars” and its leader Stepan Shaumyan, played an important role in the occurrence and expansion of unimaginable atrocities committed against unarmed civilians. Researcher-scientist Vilayat Guluyev, referring to the memoirs of an German named Kulner, who observed the bloody events in Baku during those tragic days, based on archival documents, wrote: “Armenians entered neighborhoods inhabited mainly by Muslims and killed everyone they encountered, dismembered them with swords, pierced holes with bayonets, burned houses, threw children into burning houses, and watched them burn alive. They put three-four-day-old infants on the ends of bayonets. A few days after the massacre, 87 Muslim bodies were pulled from a pit with their ears and noses cut off, their bellies torn open, and their genitals chopped off. Just as the Armenians showed no mercy to children, they showed no mercy to the elderly.”

The atrocities witnessed by a foreign citizen in Baku are a shocking glimpse into the Armenian cruelty and barbarity against Azerbaijanis.

**Key words:** republic, March 31 genocide, Transcaucasian government, Baku, press.

**Резюме**

**Художественно-публицистическое отражение геноцида 31 марта в прессе 1918-1920 гг.**

XX век — век войн, революций, восстаний, переворотов и перемен. Цепочка волн социальных, политических, военно-политических бурь не обошла стороной и Азербайджан. События 1905–1906 и 1918–1920 годов втянули нашу страну и наш народ в эпицентр водоворота резни, трагедий, погромов и геноцида. 18 марта 1918 года (31 марта по новому стилю) армяно-дашнакские и большевистские военные силы начали жестокий, зверский и дикий геноцид против азербайджанского (мусульманского) населения в городах Баку, Шемаха, Губа и других регионах страны, преследуя далеко идущие цели. Значительную роль в совершении и распространении невообразимых зверств, совершенных против безоружного гражданского населения, сыграла печально известная организация того времени «26 бакинских комиссаров» и ее лидер Степан Шаумян. Исследователь-учёный

Вилаят Гулуев, основываясь на архивных документах, ссылаясь на воспоминания немца по фамилии Кульнер, наблюдавшего кровавые события в Баку в те трагические дни, писал: «Армяне входили в кварталы, населённые преимущественно мусульманами, и убивали всех встречных, расчленяли их мечами, протыкали штыками, сжигали дома, бросали детей в горящие дома и смотрели, как они сгорают заживо. Они насаживали на штыки грудных младенцев в возрасте трех-четырех дней. Через несколько дней после резни 87 тел мусульман были вытащены из ямы с отрезанными ушами и носами, вспоротыми животами и отрубленными гениталиями. «Армяне не щадили стариков, как и детей».

Зверства, свидетелями которых стали иностранные граждане в Баку, являются шокирующим отражением жестокости и варварства армян по отношению к азербайджанцам.

**Ключевые слова:** республика, геноцид 31 марта, Закавказское правительство, Баку, пресса.

### Əsas mətn

Bakı və Şamaxı şəhərlərində törədilən qanlı qətliam hadisələrinə Zaqafqaziya Seymi iki gün sonra reaksiya vermişdir. Belə ki, Seymin üzvləri köhnə təqvimlə 20 mart 1918-ci il, saat 12.40-da yığışaraq Birinci sessiyanın 9-cu iclasına başlamış, hökumətin sədri Nikolay Çxeidze mövzu üzrə hesabatında bildirmişdir: "*Dünən Zaqafqaziya Hökuməti Bakı hadisələri haqqında fikirlərini müəyyənləşdirdi. Bakıya nümayəndə heyəti göndərmək zəruridir. Hökumət Seymə xahişlə müraciət edir ki, nümayəndə heyətinin tərkibinə layiq bildiyiniz şəxslərin adını deyin... Təklif olunur ki, Bakıya İbrahim bəy Heydərov, Tiqranyan, Oniaşvili, Mustafa bəy Mahmudov və Cavad bəy Məlik-Yeqanov göndərilsin*."

Zaqafqaziya Hökumətinin Bakıdakı erməni-daşnak qatillərinin hüzuruna "elçi" göndərmək ideyası Seymin azərbaycanlı nümayəndələri tərəfindən sərt etirazla qarşılanır. Müsavat firqəsinin və bitəraflərin adından söz alan M.Ə.Rəsulzadə hökumət və seym rəhbərliyinin ikiüzlü siyasətini ifşa edərək demişdir: "*İndi də Şamaxıda, Bakıda törədilən və hələ də davam etdirilən qətli-amların, kütləvi qırğınların rəhbərləri və icraçıları bəlli ikən Seymin nümayəndə heyətini Bakıya göndərməyə nə lüzum var? Müsəlman əhalisini, bütövlükdə Qafqazı... xilas etmək üçün Bakıya nümayəndə heyəti yox, Daşnak-bolşevik tör-töküntülərindən azad etmək üçün hərbi hissələr göndərmək lazımdır*." (5,1).

Süymin digər azərbaycanlı üzvü Mustafa Mahmudov da həmkarının fikrini dəstəkləyərək bildirdi ki, Bakı hadisələri çoxdan gözlənilirdi. Hökumət dinc əhalini qorumaq üçün tərpəniş göstərmədi. Əksinə əhalinin müsəlman hissələrindən vintov-kaları da yığışdırdılar – deyərək M.Mahmudov insanların özünü müdafiə hüququnun məhdudlaşdırılmasının əleyhinə çıxaraq Bakıya nümayəndə heyəti əvəzinə hərbi

qüvvələr göndərmək, azərbaycanlıları erməni-daşnak təcavüzündən xilas etmək üçün hökumət qarşısında tələblər qaldırmışdır.

Zaqafqaziya hökumətinin sədri Noy Ramişvilinin Seym üzvləri qarşısında verdiyi dişsiz vədləri soyqırımı qurbanlarının əzizlərinin, yaxınlarının, zərərdidələrinin qan verən, sızlayan yaralarına məlhəm ola bilmədi.

Azərbaycan yalnız müstəqilliyini bəyan etdikdən, ordu quruculuğu sahəsində uğur qazandıqdan, ölkəni erməni-daşnak və bolşevik işğalçılarından təmizlədikdən sonra öz milli təhlükəsizliyinin təminatçısına çevrildi. Azərbaycan Cümhuriyyəti Hökumətinin Gəncə şəhərində qəbul etdiyi 1918-ci il 15 iyul tarixli qərarı ilə müsəlmanlara (azərbaycanlılara) qarşı törədilən qırğınların və mülk və əmlaklarına dəyən ziyanın araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Cümhuriyyət Hökuməti 15.07.1918-ci il tarixli qərarının icrası üçün 31 avqust 1918-ci ildə tərkibində hüquqşünasları birləşdirən Fövqəladə Təhqiqat Komissiyasının tərkibini təsdiqlədi. "*Sədr – Ələkbər bəy Xasməmmədov, üzvlər: İsmayıl bəy Şaxmalıyev, Andrey Fomiç Novatski, Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Mixaylov, V.V.Qudvillo və müəllim Mirzə Cavad Axundzadə*" (7, 272).

Cümhuriyyət Hökuməti nəzdində Fövqəladə Təhqiqat Komissiyası sentyabr 1918-ci ildən - noyabr 1919-cu ilədək müddətdə 36 cilddən çox istintaq materialları toplayaraq müvafiq hüquq-mühafizə orqanlarına təqdim etmişdir. Komissiyanın fəaliyyət göstərdiyi dövrdə mətbuat vasitəsilə Erməni-daşnak və bolşevik qətl və qarətlərindən ziyan çəkən insanlara müraciət edilərək şahidi olduqları hadisələri yazıb istintaq komissiyasına və qəzetlərə göndərmək xahiş olunurdu. "Azərbaycan" qəzetinin "Elan"ına əsasən zərərdidə şəxslərin ərizələri "Hər gün saat 10-dan 3-ə kimi Metropol mehmanxanasında 28 və 29 nömrəli otaqlarda" (2,1) qəbul edilirdi.

31 Mart 1918-ci il soyqırımı haqqında Cümhuriyyət dövrü mətbuat orqanlarından "Açıq söz", "Bəsirət", "Gənclər yurdu", "Azərbaycan", "İstiqlal", "Vətən", "Evraqi-nəfisə" və digər qəzet və jurnallarda şeir, hekayə, publisistik materiallar dərc edilmişdir. Faciənin böyüklüyü, müdhişliyinin bəzi qabarıq tinləri, qəddarlıq lövhələri dram əsərlərində və digər janrlarda da öz əksini tapmışdır.

## Poeziyada 31 mart soyqırımının bədii əksi

Soyqırımı günlərində xüsusilə Bakı şəhərində erməni-daşnak silahlı qüvvələrinin törətdiyi çoxsaylı qırğınlar, qarətlər, dağıntılar, yanğınlar nəticəsində "Kaspi", "Açıq söz", "Novruz", "Şəlalə", "Bəsirət" və digər mətbəələr məhv edilmiş, bolşevik mətbuat orqanları istisna olunmaqla bütün demokratik istiqamətli qəzet və jurnallar fəaliyyətini dayandırmışdır. Tarixi faciəyə həsr olunmuş poeziya nümunələri əsasən soyqırımın bir illiyi günlərində dərc olunmuşdur. XX əsr Azərbaycan romantizminin görkəmli şairi, azadlıq və istiqlal mücahidi Məhəmməd Hadi Əbdülsəlimzadənin 31 mart 1919-cu ildə yazdığı "Şühadeyi-hürriyyətimizin ərvahinə ithaf" adlı əsərində şəhidlərimizin ruhunu ehtiramla anmış, onları yüksək dəyərləndirmişdir:

"*Sizin məzarınız iştə qülubi-millətdir,*
*Bu sözlərim ürəgimdən qopan həqiqətdir.*
*Sizi unutmayacaq şanlı millətim əsla,*
*Əmin olun buna ey ziynəti-cəhani-fəna.*
*Sizinlə buldu bu millət şərəfli istiqlal,*
*Sizinlə buldu bu millət həyati püriqbal.*" (8,3).

Məhəmməd Hadi 31 Mart soyqırımı qurbanlarını ilk dəfə ən yüksən dəyərə layiq görmüş, onları hürriyyət şəhidləri adlandırmış, məzarlarının millətin qəlbində olduğunu vurğulamış, "*Sizinlə buldu bu millət şərəfli istiqlal"* - deyə azadlıq şəhidlərini ən ali məqama yüksəltmiş, milli istiqlalımızın qazanılmasında, Azərbaycan Cümhuriyyətinin yaradılmasında "Şühadeyi-hürriyyətimizin" canları, qanları ilə böyük xidmətlərini yetərincə dürüst qiymətləndirmişdir.

Cümhuriyyət dövrü mətbuatında 31 Mart şəhidlərinə şeir həsr edən dövrünün tanınmış marifçisi və şairlərindən biri də, Hacı Səlim Səyyah Qasımzadə (1869-1943) idi. Onun 20-dən çox kitabı nəşr edilmiş, əsərləri dövri mətbuatda çıxmışdır. "Bəsirət" qəzetində dərc olunan "Mart ayı" şeiri bədii məziyyətlərinə, qatilləri, qaniçənləri ifşa manevrlərinə və hadisələrə realistcəsinə yanaşma tərzinə görə fərqlənən və sevilən əsərlərdəndir. 31 Mart şəhidlərinin birinci ildönümünə həsr etdiyi "Mart ayı" əsərində yazırdı:

"*Bu günün misli keçən il Allahım gözdən iraq,*
*Ermənilər əldə bomba, süngü, xəncərlər, bıçaq,*
*Kəsdilər evlərdə binlərcə gəlin, arvad, uşaq,*
*Südəmərlər... nizə nukində çalardı əl-ayaq,*
*Nalə, yalvarmaq... bu qövmə hərgiz etməzdi əsər*! (3, 3-4)

Şair on üç bəndlik şeirində əllərində bomba, xəncər, bıçaq tutaraq "*binlərcə gəlin, arvad, uşaq, südəmərlər*" üzərini hücuma keçən erməniləri törətdikləri qatillik əməllərinə görə ifşa edir, lənətləyir. Hacı Səlimin fikrincə qətliamlar həyata keçirən erməni daşnakları əbədi olaraq nifrətlə yad ediləcək, dünyada heç bir dövlətdən mədət görməyəcəklər. 1918-ci il mart soyqırımından bir əsrdən də çox vaxt keçsə də, tarix təsdiqləyir ki, erməni barbarlığının qiyafəsi dəyişsə də, vəhşi, yırtıcı xisləti dəyişməmiş, Azərbaycan türklərinə qarşı zaman-zaman repressiyalar, deportasiyalar, Xocalı soyqırımını həyata keçirmiş, faciə toxumları əkmişlər. Bugünkü dünyada ayrı-ayrı hökumətlər ədalət hissindən, dürüstlük duyğusundan uzaqlaşdıqca Hacı Səlim Səyyahın sözünün qəribçiliyə salındığını görür, erməni qatillərinin və terrorçularının dünyada cəzalandırılmasının yox, mükafatlandırılmasının şahidi oluruq. Bütün ədalətsizliklərə və ikili standartlara baxmayaraq şair "Mart ayı" şeiri ilə soyqırımı, qətliam "hadiseyi-ələmiyyəsi"nin poetik panoramasını yaratmağa müvəffəq olmuş, həqiqətsevər insanlarda qatillərə, terrorçulara qarşı nifrət, töhmət hissini aşılamağı bacarmış, "odlar içində yanan", "kəfənsiz dəfn olunan" on minlərlə şəhidin xatirəsinə yüz illərlə yaşayacaq poetik abidə ucaltmışdır.

*Cəmo Cəbrayıl* (1887-1965) maarif xadimi, şair, nasir, dramaturq kimi tanınır, əsərləri “Məktəb”, “Şəlalə”, “Milli nəğmələr”, “Yeni yıldız”, “Qırmızı günəş” və digər məcmuələrdə şeir, hekayə və pyesləri nəşr olunmuşdur. Onun “Evraqi nəfisə” məcmuəsində yayımlanan “Annamə” şeiri Şamaxı faciəsinin ürəksizladan müdhiş, fəlakətli mənzərələrinə həsr edilmişdir. Epik şeirin poetik imkanlarından səmərəli faydalanan müəllif kütləvi qırğınlardan sonra onun Şamaxıda müşahidə etdiyi dağıntıları, viranə qoyulmuş məscidləri, kütləvi və amansız qətlləri belə nəzmə çəkmişdir:

“*Xanələr həp qaraya batmışdır,*
*Yiyələr toprak içrə yatmışdır.*
*Qanlı düşmən kəsib, yaxıb buraxıb,*
Dopdolu, *küçələrlə qanlar axıb.*
*Məscidi atəşə edib suzan,*
*Vətəni topla eyləmiş viran...*” (1,10)

Cəmo bəy Cəbrayıl “Annamə” şeirini məsnəvi şəklində qələmə almış, təhkiyə dili ilə əsas məlumatları qabartmışdır. “Annamə” şeirində şair Şamaxı qətliamının təşkilatçılarına, icraçılarına nifrət, töhmət və lənət hissi aşılamışdır.

Cümhuriyyət dövrü mətbuatında fəal iştirak edən şairlərdən biri də, “B.Mürşid” imzası ilə tanınan Balaqədəş Mürşüd Səttaroğlu idi. Onun 31 Mart soyqırımı şəhidlərinin ikinci ildönümü ərəfəsində “Azərbaycan” qəzetində çap etdirdiyi “Azərilərə xitab” şeirində düşmənlərin törətdiyi vəhşilikləri, qəddarlıqları xatırlatması, xalqın ağır vəziyyətə düçar olması, namusun, ismətin ayaqlar altında tapdalandığı ağır günlərdə qəhrəman, şanlı Osmanlı dövlətinin köməyə gəldiyini iftixar hissi ilə nəzmə çəkmişdir. Balaqədəş Mürşüd “Azərilərə xitab” şeirində yazırdı:

“*O günlər ki, bizim ana-bacımız,*
*Qalmışdı düşmənin əsarətində.*
*Yerə salınmışdı başdan tacımız,*
*Birlik qalmamışdır türk millətində.*

*O günlər ki, həyamız, ismətimiz,*
*Ayaqlar altında tapdalanırdı...*
*Məhv olmaqda idi bizim millətmiz,*
*Həqqimizi düşmənlərmiz danırdı.*

*Dadımıza bilirsiniz kim yetişdi?*
*O qəhrəman, diavər Osmanlılar.*
*Qafqasiyanı fəth edib gəlmişdi,*
*Bizi qurtarmağa o pək şanlılar.*” (9,3)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 239-245*

Şair Balaqədəş Mürşüd "düşmənlərmiz" sözünü geniş anlamda işlətmiş, soyqırım törədənlərin erməni-daşnak silahlı qüvvələri ilə yanaşı onlara arxa, dayaq duran rus-bolşevik hərbi hissələrini də nəzərdə tutmuşdur. Şair, Azərbaycan xalqını düşmən əsarətindən, zülmündən xilas edən yeganə qüvvənin qəhrəman Osmanlılar olduğunu diqqətə çatdırmaqla bərabər, millətin dostunun və düşməninin kim olduğunu "Azərilərə xitab"ında ibrətamiz bir formada vurğulamışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Cəbrayıl Cəmo. Annəmə / Bakı: "Evraqi nəfisə", 1919, 28 may, № 3, s. 10.
2. Elan / Bakı: "Azərbaycan" qəz., 1918, 3 dekabr, № 55, s.1
3. Qasımzadə Hacı Səlim Səyyah. Mart ayı / Bakı: "Bəsirət" qəz., 1919, 1 aprel, № 220, s.3.4
4. Vilayət Quliyev . Azərbaycanda erməni zülmü. Bakı: "Ozan", 1999, s.21-22 (228 s.)
5. Закавказский Сейм. Первая сессия, стенографический отчет 9-й сессии. Тбилиси, 20 марта 1918 г., ст.1.
6. М.А.Расулзаде Выступление. Закавказский Сейм. Первая сессия, стенографический отчет 9-й сессии. Тбилиси, 20 марта 1918 г., ст.34 .
7. Рустамова-Тогиди Солмаз. Шемахы. Март-июль 1918 г. Азербайджанская погромы в документах. Том I. Баку: «Кисмет», 2013, с. 272 (856).
8. Əbdülsəlimzadə Məhəmməd Hadi. Şühadeyi-hürriyyətimizin ərvahinə ithaf / Bakı: "Azərbaycan" qəz., 1919, 31 mart, № 147, s.3.
9. Mürşüd B. (Balaqədəş). Azərilərə xitab / Bakı: "Azərbaycan" qəz., 1920, 15 mart, № 54, s.3

**Rəyçi: Fil.ü.f.d. Samirə Ağababa qızı Əliyeva**